# BALAKƏN: UĞURLARIN SEVİNCİ VƏ RƏHBƏRƏ MİNNƏTDARLIQ

(əvvəli ötən saylarımızda)

**Müasir təhsilin qarşısında duran əsas vəzifələrdən biri psixoloji sağlam, sabahkı inkişafa hazır, təbiətdə və cəmiyyətdə gedən prosesləri dərketmə qabiliyyətinə malik sağlam nəsil yetişdirməkdir. Buna görə də ümumtəhsil məktəblərində psixoloqların işinin keyfiyyətinin yüksəldilməsi mühüm məsələlərdən biridir.**



Nəzərə alınmalıdır ki, gənc və yeniyetmələrin inkişaf dövrünün əsas mərhələsi məhz məktəb illərinə təsadüf edir. Bu mərhələdə şagirdlərin qarşısına çıxan problemlərin müəllimlər və məktəb psixoloqlarının köməyi ilə həll edilməsi vacibdir. Ümumtəhsil məktəblərinin rəhbərləri bu məsələni xüsusi nəzarətdə saxlamalıdırlar.



Azərbaycanın ədəbi-mədəni fikir tarixinin əlamətdar hadisəsi sayılan böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinin dövlət səviyyəsində layiqincə qeyd edilməsinin aktuallığı və milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyəti nəzərə alınaraq Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2019-cu il tarixli Sərəncamı ilə 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan edilmişdir. "Nəsimi ili" ilə əlaqədar olaraq təhsil, mədəniyyət və digər müəssisələrdə müxtəlif tədbirlər həyata keçirilmiş və ilin sonunadək bu səpgidə tədbirlər davam etdiriləcəkdir.

Rayon mərkəzi xəstəxanasında rüb ərzində stasionar xəstələrin sayı 1094 nəfər, cərrahi əməliyyatların sayı 230 olmuşdur. Bu müddət ərzində 126316 ambulator qəbul olmuş, 18 yaşadək olan 3939 uşaq icbari tibbi müayinəyə cəlb edilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında keçirilən kütləvi tibbi müayinə tədbiri çərçivəsində 33668 nəfər tibbi müayinələrə cəlb olunmuşdur. Müayinələrin nəticəsinə əsasən 1028 nəfər ambulator, 270 nəfər stasionar müalicəyə cəlb edilmiş, 84 nəfər isə Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir. İlin əvvəlindən yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar profilaktiki tədbirlərin həyata keçirilməsi məqsədi ilə ayrı-ayrı sahələr və yoluxucu xəstəliklər üzrə kompleks tədbirlər həyata keçirilmişdir. Aparılmış profilaktik tədbirlərin nəticəsində əhali arasında idarə oluna bilən yoluxucu xəstəliklər qeydə alınmamışdır.

Ötən dövrdə rayonda bədən tərbiyəsi və idmanın kütləviliyinin artırılması məqsədilə 1214 idmançının iştirak etdiyi 8 rayon səviyyəli idman yarışı və "5 mart bədən tərbiyəsi və idman günü"nə həsr edilmiş rayon məktəblilərinin VI Spartakiadası keçirilmişdir. Ötən müddət ərzində keçirilən 9 respublika səviyyəli birincilik, çempionat və turnirlərdə 71 idmançının iştirakı təmin edilmişdir. Həmin yarışlarda idmançılarımızdan 4 nəfər I yeri, 4 nəfər isə II yeri tutaraq ümumilikdə 8 medal qazanmışlar.




2019-cu ilin birinci rübündə rayon polis şöbəsi tərəfindən 57 cinayət hadisəsi qeydə alınmış, onlardan 97,9 %-nin üstü açılmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi cinayətlərin sayı 9 fakt azalmışdır. Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı aşkar edilmiş cinayətlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 6 fakt çox olmuş, 24 cinayət faktı üzrə aşkar edilmiş narkotik vasitə dövriyyədən çıxarılmışdır. Birinci rübdə RİH başçısı tərəfindən aparatda 126 nəfər vətəndaş qəbul edilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qəbula gələn vətəndaşların sayı 4 nəfər azalmışdır. Vətəndaşların haqlı müraciətlərinin həllinə maksimum köməklik göstərilmiş, qanundan kənar tələb və əsassız şikayətlər üzrə isə ətraflı izahatlar verilmişdir.

Əhalini daha çox narahat edən, eləcə də kollektiv müraciətlərdə qaldırılan məsələlərin-yaşayış məntəqələrinin abadlaşdırılması, enerji və içməli su təminatının yaxşılaşdırılması, kənd yollarının asfaltlaşdırılması və digər sosial problemlərin həlli rayon icra hakimiyyəti başçısı aparatında vətəndaş müraciətləri ilə aparılan işlərin prioritet istiqamətlərini təşkil etmiş, belə müraciətlərin baxılmasına xüsusi diqqət göstərilmişdir. RİHB aparatına vətəndaşlardan 155 yazılı müraciət daxil olmuş, 153 müraciətə bilavasitə rayon icra hakimiyyəti başçısı aparatının məsul işçiləri tərəfindən baxılmışdır. RİHB aparatına 4 ədəd təkrar, 10 ədəd kollektiv müraciət daxil olmuşdur.

Birinci rübdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından nəzarət qaydasında göndərilən 5 müraciətə vaxtında baxılmaqla Prezident Administrasiyasına və müraciət müəlliflərinə cavab verilməsi təmin edilmişdir.

Cari ilin birinci rübündə RİH başçısı tərəfindən rayonun qəsəbə və kəndlərində 11 səyyar qəbul-görüş keçirilmiş, bu görüşlərdə 910 nəfər iştirak etmiş, 56 nəfər vətəndaş tərəfindən 60 təklif və tənqidi qeydlər söylənilmişdir.

Səyyar qəbullarda söylənilmiş təklif və tənqidi qeydlərin 25-i icra olunmuş, 9 təklif qismən icra olunmuş, 26 təklifin icrası cari və növbəti illər üçün perspektiv tədbirlər siyahısına daxil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə "Dövlət Proqramı"nda və dövlət başçısının 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışında dövlət orqanlarının qarşısına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq, təcrübi biliklərini artırmaq və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək vəzifəsi qoyulmuşdur.

Bu məqsədlə Balakən rayon İcra Hakimiyyəti Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əlaqələndirməklə "Könüllülük fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz strukturlarında könüllülük fəaliyyətini yaratmağa başlamış, bu məqsədlə Balakən rayon İcra Hakimiyyəti başçısının 06 mart 2019-cu il tarixli 16 nömrəli sərəncamı imzalanmışdır.

**Həmçinin, rayon icra hakimiyyətinin rəsmi veb-səhifəsində "Könüllülük fəaliyyəti" əsas bölməsi və "Könüllülüyə sən də qoşul", "Necə könüllü olmalı" alt bölmələri yaradılmışdır. Rayon gəncləri arasında könüllülük fəaliyyətinin təşviqi ilə bağlı müvafiq tədbirlər planı hazırlanmış və bu məqsədlə təhsil müəssisələrində gənclərlə görüşlərin keçirilməsi, müraciətlərin toplanması və müsahibələrin təşkil olunması təmin edilmişdir. Balakən rayon İcra Hakimiyyətinə könüllülük fəaliyyəti göstərmək istəyən gənclərin müraciətləri qəbul edilmiş, könüllülərə ilkin məlumatlandırıcı (qurum haqqında və görəcəkləri işlər haqqında) təlimlər keçirilmiş, 4 nəfər könüllü ilə müvafiq müqavilə bağlanmış, onlar üçün iş şəraiti yaradılmışdır.**

**Məzahir ƏHMƏDZADƏ**